# Azərbaycan Qarabağda tarix yazır

**Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bu gün iqtisadi strategiyanın uğurla həyata keçirilməsi, dərin islahatların davamlılığının təmin olunması, müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinin inkişafı və bütün bunlarla yanaşı, Qarabağ və Şərqi Zəngəzurun sabitlik, tərəqqi məkanına çevrilməsi kimi məsələlər qarşıya prioritet vəzifələr kimi qoyulub.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində də bütün bunlar barədə ətraflı fikir bildirib. Dövlətimizin başçısı ötən il ərzində işğalçılardan təmizlənmiş ərazilərdə həyata keçirilmiş layihələrdən bəhs edərkən, ilk növbədə, diqqəti keçən hesabat dövründə nəzərdə tutulmuş vaxtdan xeyli əvvəl Laçın şəhərinin, eyni zamanda, bu rayonun Zabux və Sus kəndlərinin azad edilməsinə, belə bir hadisənin böyük nailiyyət olduğuna yönəldib. "Artıq Laçın şəhərində çox genişmiqyaslı quruculuq-bərpa işləri aparılır. Əminəm ki, biz 2023-cü ildə laçınlıları Laçına qaytaracağıq, ilk keçmiş köçkünlər öz doğma torpağına qayıdacaqlar" – deyə, ölkə rəhbəri vurğulayıb.

Dövlətimizin başçısı sözügedən müraciətində Zəngilanın Ağalı kəndində artıq həyatın bərpa edildiyini, bu yaşayış məntəqəsi ilə bağlı məskunlaşdırma tədbirlərinin uğurla həyata keçirildiyini və bunun ilk layihə kimi icrası nəticəsində zəngilanlıların öz doğma torpaqlarına qayıtmalarını tarixi hadisə adlandırıb.

Prezident İlham Əliyev müraciətində vurğuladığı kimi, Vətən müharibəsindən sonrakı cəmi il yarım ərzində Zəngilanın Ağalı kəndində bərpa-quruculuq işləri ən yüksək səviyyədə reallaşdırıldı. Bu, Azərbaycan dövlətinin güc və iradəsinin təcəssümü olaraq bütün dünyanın diqqətini çəkdi. Başqa sözlə, belə bir möhtəşəm qayıdış Azərbaycanın İkinci Qarabağ savaşındakı tarixi qələbəsinin dinc şəraitdə davamı idi. Bu, eyni zamanda, dövlətimizin başçısının bildirdiyi kimi, xalqımızın böyüklüyünü göstərdi. Yəni doğma yurdlarından didərgin düşən soydaşlarımızın öz dədə-baba torpaqlarına necə möhkəm bağlı olduqlarını nümayiş etdirdi.

Prezident İlham Əliyev həmin müraciətində daha sonra deyib: "Böyük Qayıdış Proqramı uğurla icra edilir. Bir neçə şəhərdə artıq inşaat işləri geniş vüsət almışdır. İlk növbədə, Şuşa, eyni zamanda, Ağdam, Füzuli, Zəngilan, Laçın şəhərlərində geniş quruculuq işləri gedir, xəstəxanalar, məktəblər, yaşayış binaları inşa edilir. Bununla bərabər, 10-dan çox kəndin Baş planı təsdiqləndi və bir neçə kəndin təməlini mən şəxsən qoymuşam. Bütövlükdə deməliyəm ki, azad edilmiş bütün şəhərlərimizin və qəsəbələrimizin Baş planları hazırlandı, təsdiqləndi. Bütün işlər Baş planlar əsasında gedəcək. Eyni zamanda, Böyük Qayıdış Proqramında bizim bütün planlarımız öz əksini tapıb və əminəm ki, yüz minlərlə keçmiş köçkün yaxın gələcəkdə öz doğma torpağına qayıdacaq".

Müraciətdə Qarabağ və Şərqi Zəngəzurda tikinti layihələrinin icrası ilə bərabər, minatəmizləmə prosesinin də sürətlə aparıldığı diqqətə çatdırılıb. Habelə, Ermənistan tərəfindən indiyədək dəqiq mina xəritələrinin verilmədiyi, bunun həm bərpa-quruculuq işlərinin gedişinə mənfi təsir göstərdiyi, həm də 300-ə yaxın azərbaycanlının müharibədən sonrakı dövrdə mina faciəsi nəticəsində həlak olduğu, yaxud ağır yaralandığı vurğulanıb.

Qeyd edək ki, Qarabağ işğalda olduğu illər ərzində erməni faşizmi tərəfindən bu əbədi-əzəli yurd yerlərimizdə tarixdə heç zaman müşahidə edilməyən dağıntılar, ekoloji fəlakətlər törədilib, təbii sərvətlərimiz talanıb. Bu ərazilər düşməndən təmizlənəndən dərhal sonra isə bərpa-quruculuq işlərinə, şəhər və kəndlərin salınmasına başlanılıb.

Azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işləri çərçivəsində yuxarıda bildirildiyimiz kimi, birinci pilot layihə – Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd" layihəsi gerçəkləşdirilib, bütün yaşayış məntəqələrində elektrik təchizatının bərpası başa çatdırılıb, bir neçə su elektrik stansiyasının açılışı olub. Qarşıdakı dövrdə isə yüzlərlə məktəb, xəstəxana, idman kompleksi və mədəniyyət ocağının inşasının, habelə digər irihəcmli layihələrin yerinə




yetirilməsinin Böyük Qayıdış çərçivəsində reallaşdırılması nəzərdə tutulub. Füzuli və Zəngilan beynəlxalq hava limanları fəaliyyətə başlayıb. Laçında isə üçüncü aeroportun inşası davam etdirilib.

Azad edilmiş ərazilərdə tarixi abidələr, o cümlədən, məscidlər əsaslı şəkildə bərpa edilir və yenidən inşa olunur. Bu məsələdə Heydər Əliyev Fondu önəmli rol oynayır.

Müharibədən ötən müddətdə Zəngəzur dəhlizinin tikintisi ilə bağlı xeyli iş görülüb. Bu infrastrukturun ölkəmizin ərazisindən keçən hissəsində dəmir yolu xətti üzrə 40 faiz, avtomobil yolu üzrə isə 70 faiz əməliyyat həyata keçirilib. Dövlətimizin başçısı müraciətində bu məqamla bağlı deyib: "Zəngəzur dəhlizinin açılması ilə əlaqədar genişmiqyaslı işlər aparılır, dəmir yolları, avtomobil yolları çəkilir. Zəngəzur dəhlizinin açılması mütləq olmalıdır, Ermənistan bunu istəsə də, istəməsə də. Biz ortaya güclü iradə qoymuşuq, bütün işlər plan üzrə gedir. Bizim tələbimiz əsaslıdır və ədalətlidir. Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə bizim bağlantımız olmalıdır və olacaqdır".

Sonda qeyd edək ki, Azərbaycan indiyədək bu genişmiqyaslı layihələri yalnız öz maliyyə resurslarına arxalanaraq gerçəkləşdirib. Təəssüf ki, beynəlxalq donor təşkilatları tərəfindən, dövlətimizin başçısının vurğuladığı kimi, ölkəmizə bir manat, ya bir dollar belə kömək edilməyib, bütün bərpa-quruculuq işləri öz hesabımıza aparılıb.

**Səhifəni hazırladı: Vaqif BAYRAMOV "Xalq qəzeti"**

Xalq qəzeti .- 2023.- 6 yanvar.- S.7.